GÜNÜN SİYASİ NƏBZİ





**Azərbaycan və Vyetnam coğrafi baxımdan uzaq məsafələrdə yerləşsələr də, iki ölkə arasında zamanın sınağından çıxmış sarsılmaz dostluq telləri mövcuddur. Bu iki xalqı birləşdirən münasibət diplomatik əlaqələrin rəsmi xəritəsindən əlavə olaraq, həm də keçmişin keşməkeşli yollarından keçib bu günə uzanan dəyərli bir irsdir. 66 illik tarixi olan Azərbaycan-Vyetnam dostluğu əslində, xalqlarımızın bir-birinə olan etimadının, həmrəyliyinin və qarşılıqlı hörmətinin təcəssümüdür. Bir çox sahələrdə - enerji, ticarət, təhsil və mədəniyyət müstəvisində ortaq maraqlar əsasında praqmatik və faydalı əməkdaşlıq qurmağı bacaran ölkələr gələcəyə də inamla addımlayırlar.**

# Azərbaycan-Vyetnam münasibətləri: Yeni mərhələyə doğru inamlı addım

Tarixə nəzər saldıqda, bu münasibətlərin əsas memarlarından biri kimi ümummilli lider Heydər Əliyevin adını xüsusi qeyd etmək lazımdır. Onun 1983-cü ildə Vyetnama etdiyi səfər, sözün əsl mənasında, bu ölkəyə verilmiş böyük dəstəyin, sarsılmaz həmrəyliyin parlaq nümunəsi idi. Fransa müstəmləkəçiliyindən, ABŞ-la qanlı müharibədən çıxmış Vyetnam həmin dövrdə yenidən geosiyasi təzyiqlərin hədəfinə çevrilmişdi. Belə çətin bir anda Heydər Əliyevin səfəri Vyetnam xalqı üçün bir ümid çırağı, bir dost əlini uzadan məqam idi. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: "1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib. 1983-cü ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın ümummilli lideri Heydər Əliyev Vyetnamda səfərdə olub. Şübhəsiz ki, bu əlamətdar səfərlər ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib".

Bu gün Azərbaycan və Vyetnam əlaqələri gələcəyə baxan strateji tərəfdaşlığa söykənir. Uzun illərin sınağından çıxmış bu dostluq qarşıdakı onilliklərdə də eyni səmimiyyət və qarşılıqlı etimadla davam edəcək. Çünki bu münasibətlərin əsasında tarix dayanır, iradə dayanır, xalqların birliyi dayanır. Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə müsahibəsində dediyi kimi, bu səfəri Azərbaycan-Vyetnam əməkdaşlığının inkişafında mühüm mərhələ kimi qiymətləndirmək olar. Prezident İlham Əliyev mətbuata bəyanatla çıxış edərək səfərin təkcə siyasi dialoqun yox, həm də konkret əməkdaşlıq istiqamətlərinin inkişafına xidmət edəcəyini, eyni zamanda səfərin nəticələrinin uğurlu olacağını və əldə edilmiş razılaşmaların konkret layihələrə çevriləcəyini qeyd etdi. Azərbaycan və Vyetnam arasında iqtisadi əməkdaşlıq, xüsusilə enerji və nəqliyyat sahəsində perspektivlidir. Prezident İlham Əliyev bu kontekstdə vurğuladı ki, bərpaolunan enerji növləri ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycan artıq Cənubi Qafqazda "yaşıl enerji" sahəsində liderlik etməkdədir və bu təcrübəni Vyetnamla bölüşməyə hazırdır. Həmçinin Azərbaycan-Vyetnam arasında ticarət dövriyyəsinin artırılması üçün nəqliyyat dəhlizləri üzrə əməkdaşlıq potensialı böyükdür. Xəzər və Cənub-Şərqi Asiyanı birləşdirə biləcək logistik imkanlar qarşılıqlı maraq doğurur.



Digər tərəfdən, müstəqillik illərində dövlət başçılarının qarşılıqlı səfərləri tərəfdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə səbəb olub. 2014-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə dövlət səfəri və 2015-ci ildə Vyetnam Prezidenti Çıonq Tan Şanqın Azərbaycana rəsmi səfəri ikitərəfli əlaqələrin genişlənməsində mühüm önəm kəsb edir. Həmin səfər çərçivəsində keçirilmiş birinci Azərbaycan-Vyetnam biznes forumu energetika, tikinti, informasiya texnologiyaları, sənaye, nəqliyyat, turizm və digər sahələrdə perspektivləri nəzərdən keçirmək üçün platforma rolunu oynayıb. Bu il mayın 7-si Azərbaycan-Vyetnam münasibətləri tarixində əlamətdar gün kimi yadda qaldı. Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana rəsmi səfəri iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçidini göstərdi. Bu səfər siyasi və iqtisadi inteqrasiyanın dərinləşməsi ilə yanaşı, humanitar əlaqələrin və partiyalararası dialoqun da genişlənməsinə mühüm təkan verir. Azərbaycan Prezidenti İlham Əliyev bu hadisəyə xüsusi önəm verərək, səfərin strateji məna daşıdığını və qarşılıqlı münasibətlərə yeni nəfəs gətirdiyini vurğulayıb.

Yeni mərhələ qarşılıqlı maraqların birləşdiyi, ortaq məqsədlərin yeni üfüqlər açdığı bir dövr deməkdir. Və bu Bakıda baş tutan səfərlə bir daha təsdiqləndi ki, Azərbaycanla Vyetnam arasında münasibətlər yalnız keçmişə deyil, gələcəyə də hesablanır. Azərbaycan və Vyetnam xalqları arasında mədəni və təhsil mübadilələrinin gücləndirilməsi istiqamətində də əhəmiyyətli addımlar atılmaqdadır. Sovet dövründə Azərbaycanda təhsil almış vyetnamlıların ölkələrinin elitasında təmsil olunması bu sahədəki əməkdaşlığın gələcək üçün nə qədər perspektivli olduğunu sübut edir. Heydər Əliyev Fondunun Vyetnamın Ha Giang əyalətində inşa etdiyi ibtidai məktəb bu sahədəki fəaliyyətin bariz nümunəsidir.

Qeyd edək ki, iki ölkə arasında əlaqələrdə iqtisadi lokomotivin xüsusi əhəmiyyəti var. Məhz bu çərçivədə Azərbaycan və Vyetnam arasındakı iqtisadi inkişafın perspektivləri də geniş müzakirə olundu. Təsadüfi deyil ki, son illər Azərbaycanla Vyetnam arasında əməkdaşlıq təkcə kağız üzərində deyil, həyatın özündə, real layihələrdə və konkret nəticələrdə öz əksini tapır. İki ölkə arasında qurulan bu münasibətlər artıq sabit və müsbət dinamika ilə irəliləyir. 2025-ci ilin cəmi ilk üç ayı ərzində Azərbaycanla Vyetnam arasında ticarət dövriyyəsi 127,2 milyon ABŞ dollarına çatıb. Bunun 91,8 milyon dolları Azərbaycanın əsasən xam neftdən ibarət olan məhsullarının Vyetnama ixracıdır. Əvəzində Azərbaycana Vyetnamdan 35,4 milyon dollarlıq məhsul gətirilib. Müqayisə üçün bildirək ki, 2024-cü ildə bu göstərici 223,9 milyon dollar idi. Beləliklə, iqtisadi əlaqələrin sürətlə genişləndiyi aydın görünür. Bununla yanaşı, kiçik və orta sahibkarlıq da bu əlaqələrin aktiv iştirakçısına çevrilir. 2024-cü ildə Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Vyetnam Beynəlxalq Biznes Klubu arasında imzalanan saziş bu sahədə atılmış mühüm bir addım oldu. Bu sənəd iki ölkənin sahibkarlarını bir-birinə yaxınlaşdıran, ortaq layihələr üçün zəmin yaradan strateji platformadır. Eyni zamanda Azərbaycanın tranzit və nəqliyyat qovşağı kimi artan rolu Vyetnamla əməkdaşlığa yeni nəfəs verir. Mədəniyyət sahəsində dialoqun gücləndirilməsi, nəqliyyat və logistika sektorunda perspektivlərin genişlənməsi isə bu münasibətləri daha da dərinləşdirir. İqtisadi rəqəmlərin arxasında etimad, qarşılıqlı anlaşma və gələcəyə inam dayanır.

Xüsusi vurğulanmalıdır ki, Azərbaycanın və Vyetnamın dövlət başçıları mətbuata bəyanatlarla çıxışı həm strateji, həm də texnoloji baxımdan xüsusi əhəmiyyət kəsb edir. Cənab İlham Əliyevin vurğuladığı müdafiə sənayesi sahəsində əməkdaşlıq perspektivləri olduqca vacibdir: "Müdafiə sənayesi sahəsində çox böyük perspektivlər var. Hər iki ölkədə sənayenin bu istiqaməti kifayət qədər inkişaf edib. Burada da səylərin birləşdirilməsi, birgə müəssisələrin yaradılması və qarşılıqlı əməkdaşlıq fayda gətirə bilər". Məlumdur ki, Azərbaycan bu gün yüksək texnologiyalara əsaslanan müasir hərbi sənaye kompleksinə sahibdir. Vyetnam isə regionda təhlükəsizlik və müdafiə sahəsində artan çağırışlarla üz-üzədir. Bu iki ölkənin imkan və ehtiyacları bir araya gəldikdə, ortaya qarşılıqlı faydalı, strateji tərəfdaşlığa əsaslanan əməkdaşlıq modeli çıxacaq.

Azərbaycan-Vyetnam münasibətləri bu gün yalnız iqtisadi və siyasi maraqlarla deyil, həm də dəyərlər, mədəniyyət və qarşılıqlı hörmət üzərində qurulur. Və bu möhkəm təməl üzərində qurulan hər bir yeni addım gələcək nəsillər üçün sağlam və etibarlı bir yol açır.

**Nurlan ABDALOV,**
**"Respublika".**